# Mündəricat

GİRİŞ ........................................................................................ 9
İQTİSADİYYAT NƏDİR?
"Amansız elmdən" mürəkkəbliyi xilas etmək ........................................ 12
Kompromis və imkan dəyəri
Bizim irəli sürdüyümüz fərziyyə ........................................................ 17
AZAD TİCARƏTİN MEYDANI VƏ MÜQAYİSƏLİ
ÜSTÜNLÜYÜN ƏHƏMİYYƏTİ
Niyə bütün yollar Romaya aparır? ...................................................... 22
BEYNƏLXALQ TİCARƏT VƏ TİCARƏT MANEƏLƏRİ
Sərhədsiz Azad Ticarət ...................................................................... 27
ƏNƏNƏVİ İQTİSADİYYAT, KOMANDA İQTİSADİYYATI VƏ
BAZAR İQTİSADİYYATI
Biz bunu belə etmirik! ........................................................................ 32
KAPİTALİZM SOSİALİZMƏ QARŞI
Adam Smit və Karl Marks rəqabət aparırlar ........................................ 37
BARTER VƏ PULUN İNKİŞAF EDİLMƏSİ
İnək üçün pul qalığınız var? ................................................................ 41
TƏDQİQ EDİLMİŞ DƏYİŞDİRİLMƏYƏN QİYMƏT
Matrisə xoş gəlmisiniz ........................................................................ 46
PULUN DƏYƏRİ VƏ FAİZ DƏRƏCƏLƏRİ
Anı dəyərləndir! .................................................................................. 50
BANK İŞİNİN MƏNŞƏYİ
EST. 2000-ci il ..................................................................................... 54
BANKLAR PULU NECƏ YARADIR
"Qatma-qarışıqlıqdan" başqa ............................................................... 57
BANKLAR TƏNZİMLƏMƏ VƏ
NİZAMSIZLIQ SİSTEMİ KİMİ
Sən mənim belimi qaşı, mən də sənin belini
qaşıyacağam (əl əli yuyar, əl də üzü) .................................................. 61
BAZARLAR: TƏLƏB VƏ TƏKLİF
At ticarəti 101 ...................................................................................... 65
TƏLƏB VƏ TƏKLİF: İSTEHLAKÇI DAVRANIŞI
İqtisadçılar xoşbəxtliyi necə müəyyənləşdirirlər? ............................... 70

TƏLƏB VƏ TƏKLİF: QİYMƏTİN REALLAŞMASI
İstehsalçılar və istehlakçılar üçün ortaq zəminlərin tapılması.............74
TƏLƏB VƏ TƏKLİFİN DƏYİŞİKLİKLƏRİ
Yuxarı qalxan gec-tez aşağı düşməlidir.....................................................77
MÜHASİBATIN İQTİSADİYYATDAN FƏRQİ
Sən kartof deyirsən, mən isə şalğam deyirəm..........................................82
İSTEHSAL FUNKSİYASI
Yeganə sabit dəyişiklikdir .........................................................................85
XƏRCLƏRƏ NƏZARƏT
Çünki qazanc və motivasiya birləşmiş anlayışlardır ...............................88
QISA MÜDDƏTDƏ MÜKƏMMƏL RƏQABƏT
Gəlin arzumuzu reallıq kimi təqdim edək...............................................91
UZUNMÜDDƏTLİ MÜKƏMMƏL RƏQABƏT
Sıfıra doğru yarış .......................................................................................94
NƏ OLİQOPOLİYALARDIR, NƏ DƏ TAM
RƏQABƏTLİ BAZARLARDIR
Dünya hökmranlığı, yaxud ölüm!.............................................................98
SÖVDƏLƏŞMƏ VƏ KARTELLƏR
Dünya hökmranlığı, yaxud ölüm! Yenidən baxılmış variant ...............101
OYUN NƏZƏRİYYƏSİ
Mən bir sait almaq istərdim....................................................................104
QİYMƏT DAVRANIŞLARI
Pul, pul, pul ..............................................................................................107
MONOPOLİYA: YAXŞI, PİS VƏ TƏHLÜKƏLİ
Bu, sadəcə, stolüstü oyun deyil...............................................................111
BAZARDA DÖVLƏTİN ROLU: QİYMƏT MAKSİMUMLARI VƏ
QİYMƏT MİNİMALLARI
Amma onlar yaxşıniyyətli idilər .............................................................115
BAZARDA DÖVLƏTİN ROLU: VERGİLƏR VƏ SUBSİDİYALAR
Həyatda yeganə əminlik..........................................................................119
BAZAR UĞURLARI
Buyurun, pulsuz yaşayın .........................................................................123
MALİYYƏ BAZARLARI VƏ KREDİT VERİLƏN
FONDLAR NƏZƏRİYYƏSİ
Pərdənin arxasında nə var?.....................................................................127
PUL BAZARI
Mənim fri kartofu ilə xəzinə hesabım var .............................................131
İSTİQRAZ BAZARI

Məni istiqraz, kupon deyə çağır ........................................................134
SƏHMLƏR BAZARI
Şirkətlərin səhmlərinin alınması ........................................................139
XARİCİ VALYUTA VƏ MƏZƏNNƏLƏR
Həyat budur? ........................................................143
İXRAC VƏ TİCARƏT BALANSI
Şəbəkədən başqa heç nə........................................................149
RƏSMİ EHTİYATLAR VƏ MƏZƏNNƏ SİYASƏTİ
Avro niyə mövcuddur?........................................................153
ÖZƏL SEKTOR VƏ DÖVLƏT SEKTORU
Sadəcə, axınla üzün ........................................................156
XARİCİ SEKTOR
Bu kiçik bir dünyadır ........................................................159
MALİYYƏ SEKTORU VƏ MALİYYƏ BAZARLARI
Hər kəsilmiş tortun içində barmaq........................................................162
ÜMUMİ DAXİLİ MƏHSUL
Hesabın aparılması........................................................165
ÜDM: ÖZƏL XƏRCLƏR VƏ İNVESTİSİYA
Çünki siz buna dəyərsiniz........................................................169
ÜDM: DÖVLƏT XƏRCLƏRİ VƏ İXRAC
Əlinizdə varsa, xərcləyin ........................................................173
ÜDM-ə YANAŞMALAR
Yalanlar, lənətlənmiş yalanlar və statistika........................................................176
REAL ÜDM-DƏ VƏ BİZNES DÖVRİYYƏSİNDƏ
DƏYİŞİKLİKLƏR
Təhlükəsizlik kəmərlərinizi bağlayın ........................................................180
ÜDM BİZƏ NƏYİ DEMİR?
Pul hər şey demək deyil ........................................................183
İŞSİZLİYİN TƏRİFİ
İşim haradadır? ........................................................187
İŞSİZLİYİN TƏSNİFATI
Çatlardan enmə ........................................................190
İŞSİZLİK NİYƏ PİSDİR?
Potensialınıza uyğun yaşamaq........................................................195
İNFLYASİYANIN TƏRİFİ
İnanılmaz dərəcədə ucuzlaşan dollar........................................................198
İNFLYASİYANIN NÖVLƏRİ
Hiperinflyasiya əvəzinə hiperventilyasiya........................................................202

İNFLYASİYA: QALİBLƏR VƏ UDUZANLAR
Və ya borc götürmək qənaət etməkdən daha yaxşıdı ............................207
DEZİNFLYASİYA VƏ DEFLYASİYA
Balonun partladılması ....................................................................211
MƏCMU TƏLƏB VƏ MƏCMU TƏKLİF
İqtisadçının büllur topu ..................................................................215
MAKROİQTİSADİ TARAZLIQ
Hamısını bir araya gətirmək...........................................................219
KEYNSİAN BAXIŞ VƏ MALİYYƏ SİYASƏTİ
Müdaxilə ........................................................................................223
FEDERAL EHTİYAT SİSTEMİ
Nifrət etdiyimiz bank......................................................................228
PUL SİYASƏTİ
İdarə etməyi bizə etibar edin..........................................................232
TƏKLİF İQTİSADİYYATI
Voodoo iqtisadiyyatının yüksəlişi...................................................237
İQTİSADİ ARTIM
Daha yaxşı cəmiyyətin qurulması ...................................................242
İQTİSADİ ARTIMIN ŞƏRTLƏRİ
İstehsal toxumlarının əkilməsi........................................................245
İQTİSADİ SİYASƏT ARTIMA NECƏ TƏSİR EDİR?
Hökumət işə qarışır ........................................................................250
BÖYÜK DEPRESSİYA BÖYÜK TƏNƏZZÜLLƏ GÖRÜŞÜR
Tarix özünü təkrar edir ...................................................................255
İNVESTİSİYA BANKININ ÇÖKÜŞÜ
Qabarcığın partlaması ....................................................................260
FİSKAL SİYASƏTİ ATƏŞ ALTINDA
Daha böyük qayığa ehtiyacınız olacaq ............................................263
ƏTRAF MÜHİT VƏ İQTİSADİYYAT
Ağac qucaqlayanlar, birləşin! .........................................................267

# GİRİŞ

## İQTİSADİYYATI ANLAMAQ NİYƏ VACİBDİR

İqtisadiyyatla bağlı ziddiyyətli fikirlərə sahibsinizmi? İqtisadiyyat mexanizminin necə işlədiyini bilmək istəyirsiniz, amma yuxu sizə imkan vermir. Daha çox öyrənmək istəyirsiniz, lakin quru texniki dil və "bütün bu pul söhbətləri" sizə maraqsızdır. Elədirmi?

İqtisadiyyat 101-i öyrənərkən iqtisadiyyatın heç də darıxdırıcı sahə olmadığını başa düşəcəksiniz. Əslində, bu mövzunu araşdırmaq sizi dünyaya daha əvvəl heç düşünmədiyiniz şəkildə baxmağa vadar edəcək.

İqtisadiyyat sizə işsizlik nisbəti və əziz qoca atanın alt paltarını dəyişdirmək meyli kimi bir-birindən fərqli görünən amillər arasında əlaqə yaratmağa imkan verir. Bir sözlə, dünyanı daha yaxşı başa düşəcəksiniz.

Faiz dərəcələri dəyişdikdə nəticələri təxmin edə biləcəksiniz. Səhmlərin, istiqrazların, qarşılıqlı fondların və təminatlı borc öhdəliklərinin mənalı müzakirəsi artıq portuqal dilinin qəribə ləhcəsi kimi səslənməyəcək. Bu, şəxsi maliyyə kitabı olmasa da, onun təsvir etdiyi iqtisadiyyat prinsipləri sizə öz maliyyə evinizi qaydasında saxlamağa kömək edəcək. İqtisadiyyatda gözləntilər reallığa çevrilir və pul artıq, sadəcə, sosial quruluşdur.

**Bu, darıxdırıcı yox, zəhlətökən bir şeydir! İqtisadiyyat 101**-i oxuduqdan sonra siz azalan marjinal faydalılıq, qənaət para

doksu və hər kəsin yeni, sevimli, kəmiyyət yumşalması kimi anlayışları öyrənəcək
və sevəcəksiniz. Bu fikirlərə əsaslanaraq, ətrafınızdakı iqtisadi vəziyyəti daha yaxşı başa düşməyə başlayacaqsınız və həmin tezislər insanların pula gəldikdə niyə belə davrandıqlarını anlamağa kömək edəcək (bu, həmişə rasional deyil!). Siz hətta menecerinizə dəyişən xərcləri necə idarə etməyi və mənfəəti artırmağı öyrətmək üçün bu məlumatdan istifadə edə bilərsiniz. Valyuta məzənnələri və əmanət axınları sizin üçün uşaq oyununa çevriləcək, kapital və investisiya tamamilə yeni məna kəsb edəcək, İQİ (İstehlak qiymətləri indeksi) və nominal ÜDM-in deflyasiyası sizin üçün ikinci xarakterə çevriləcək. Furqon mikroavtobusunda yaşayan və gitara çalan hippi şairə niyə texniki cəhətdən işsiz olmadığını ona izah edəndə o, çox sevinəcək. İqtisadiyyat təkcə yuxarıda qeyd etdiyim bəzi mücərrəd terminləri müəyyən etməkdən ibarət deyil. Bu, əslində, fəlsəfədə bir məşqdir! Bununla demək istəyirəm ki, iqtisadiyyat həyatınızın hər sahəsinə təsir edir və gördüyünüz hər bir işə təzyiq göstərir. Mən burada bütün aspektləri nəzərdə tuturam.

İqtisadiyyat heç bir şeyin pulsuz olmadığını öyrədir. Yəni hər bir şeyin öz qiyməti var. Xərclər hər seçimdə iştirak edir, hətta seçimin pul məsələlərinə heç bir aidiyyəti olmadığı görünsə belə, burada xərclərin rolu böyükdür.

İqtisadiyyat evdən uzaqda olan adsız qruplar tərəfindən idarə olunmur. Bütün iqtisadi qərarlar insanlar tərəfindən verilir. Bu qərarların xərclərini fərdlər öz üzərlərinə götürürlər. Bəli, bu o deməkdir ki, iqtisadiyyat sən özünsən. İqtisadiyyat insandır, fərddir. Abstrakt məxluqlar qiymət müəyyən etmirlər. Qiymətləri biz özümüz təyin edirik.

İqtisadiyyat 101-i oxuduqdan sonra dünyanın niyə bu cür idarə olunduğunu biləcəksiniz. Burada aşağıdakı amilləri öyrənəcəksiniz:

- Nə üçün yaxşı bir şey çox ola bilər (səmərəlilik azalır)?
- Nə üçün hər hansı başqa ad altında olan işsizlik, yəqin ki, işsizlik hesab olunmur?
- Nə üçün uzunmüddətli perspektivdə doğru olan bir şey qısa müddətdə doğru olmaya da bilər?
- Nə üçün gözləntiləri idarə edən siyasətçilər reallığı da idarə edə bilirlər?
- Nə üçün inflyasiya və deflyasiya arasında seçim verilirsə, siz inflyasiyanı seçməlisiniz?
- Nə üçün fərdlər öz kapitallarını hökumətlərdən daha yaxşı idarə edirlər.

İqtisadiyyatın genişlənən dünyasını araşdırmağa hazırsınız? Elədirsə, onda irəli!

# İQTİSADİYYAT NƏDİR?

## "Amansız elmdən" mürəkkəbliyi xilas etmək

Soyuducunun qapısını açırsınız, içindəki yeməklərə baxırsınız və "Bu evdə yeməyə heç nə yoxdur" deyirsiniz.

Daha sonra paltarlarla dolu şkafın içinə göz gəzdirib "geyinməyə heç nəyim yoxdur" deyə düşünürsünüz.

Siz qıtlıqla qarşılaşırsınız. Sizə lazım olan və ya istədiyiniz şey heç vaxt kifayət etmir. Məsələ burasındadır ki, yeməyiniz də, paltarınız da çoxdur.

Siz o vaxt qarşılaşdığınız seçimlərə məhəl qoymamağı üstün tutdunuz, amma, nəhayət, yumşalaraq zibil qutusunun altındakı büzüşmüş üzümlərin yanında alma yeyəcəyinizi, sonra isə nifrət etdiyiniz köynəyi və şalvarı geyinəcəyinizi bilirsiniz.

Siz iqtisadiyyatın formalaşdırdığı məxluqsunuz. Qıtlığı nəzərə alaraq, qarşılaşdığınız seçimlərə baxıb, qiymətləndirib və sonra seçirsiniz.

## QITLIĞI ÖYRƏNMƏK

İqtisadiyyat fərdlərin, qurumların və cəmiyyətin qıtlıq vəziyyəti ilə necə məşğul olmağı seçdiyini öyrənir. İnsanların qıtlığa necə reaksiya verdiyini görmək maraqlıdır. Bəziləri mükəmməl planlar və sistemlər yaradır ki, hər kəsin məhdud resurslardan öz ədalətli payını almasına əmin olsun. Digərləri yolboyu nəsə fikirləşirlər. Hər kəs hər gün istər-istəməz iqtisadiyyatla məşğul olur.

Tək bir fərddən başlayaraq ən böyük cəmiyyətə qədər yer üzündə insanlar davamlı olaraq yaşamaq, dolanmaq və hətta qarşılaşdıqları nisbi qıtlıq şəraitində inkişaf etmək üçün daim mübarizə aparırlar.

## Fəlsəfə övladı

İqtisadiyyat uzun müddətdir mövcud olsa da, həmişə bu adla tanınmayıb. Filosoflar bu sahənin belə adlandırılmasından hələ çox əvvəl çatışmazlığı və seçimi öyrəniblər. Müasir iqtisadiyyatın atası sayılan Adam Smit ixtisasca iqtisadçı deyil, əxlaq filosofu hesab olunurdu. Bu seçimləri öyrənən insanlar iqtisadçılardır.

İqtisadiyyatın əhatə dairəsi böyükdür, çünki insanların geniş seçim imkanları var. Bəzi iqtisadçılar fərdlərin və qurumların qərar qəbul etmələrini öyrənirlər; başqaları xalqların qıtlıqla necə məşğul olduğunu araşdırırlar.

İqtisadçılar öyrəndikləri hər şeyin davranışını izah etmək üçün nəzəriyyələri tədqiq edirlər.

Bu nəzəriyyələrdən bəziləri daha sonra real dünya məlumatlarına qarşı sınaqdan keçirilir və bəzən bu nəzəriyyələr heç sınaqdan keçirilmədən təcrübədə tətbiq olunur. İqtisadçılar universitetlər, maliyyə institutları, böyük korporasiyalar və hökumətlər üçün çalışırlar.

## MİKROİQTİSADİYYAT

Mikroiqtisadiyyat sahəsi öz diqqətini fərdlərin və müəssisələrin qərar qəbul etməsinə yönəldir. Mikroiqtisadiyyat ilk növbədə əmtəə, xidmətlər və resurs bazarları ilə əlaqədardır. Mikroiqtisadiyyat anlayışında bazarlar mərkəzi yer tutur. Alıcılar və satıcılar resursları, malları və ya xidmətləri mübadilə etmək üçün nə vaxt və harada görüşsələr, buna bazar deyilir və bu bazarların davranışı iqtisadçıların xüsusi maraq dairəsindədir.

Onlar səmərəli işləyirmi? İştirakçıların adekvat məlumat əldə etmək imkanı varmı? Bazarda kim və neçə nəfər iştirak edir? Bir bazarda verilən qərarlar əlaqəli bazardakı qərarlara necə təsir edir?

## MAKROİQTİSADİYYAT

Makroiqtisadiyyat bütövlükdə xalqların qıtlıqla necə mübarizə apardığını öyrənir. Makroiqtisadçılar dövlətlərin əmtəə və xidmətlərin bölüşdürülməsinə və ya onları yaratmasına imkan verən sistemləri təhlil edirlər. Onların verdiyi suallar müxtəlifdir və həm fərdlər, həm də siyasətçilər üçün böyük maraq doğurur:

- İqtisadiyyatı necə tənzimləmək olar?
- İşsizlik nə üçün mövcuddur?
- Pulun miqdarındakı dəyişikliklər bütövlükdə iqtisadiyyata necə təsir edir?
- Hökumət xərcləri və ya vergi siyasəti iqtisadiyyata hansı təsiri göstərir?
- İqtisadiyyatı necə inkişaf etdirə bilərsiniz?

## QITLIQ

Qıtlıq olmasaydı, iqtisadiyyatın öyrənilməsinə ehtiyac qalmazdı. Qıtlıq olmasaydı, heç bu kitabın yazılmasına da ehtiyac qalmazdı. Bununla belə, siz o qədər də şanslı deyilsiniz. Qıtlıq hər kəsin ehtiyaclarını və ya istəklərini təmin etmək üçün vaxt, pul və ya əşya çatışmazlığı səbəbindən mövcud olan universal bir vəziyyətdir. Hər kəsin tələbatı resurslardan hazırlanır. İqtisadiyyatı daha çox "iqtisadi" etmək istəyi, resurslar istehsal amilləri adlanır. İstehsal amillərinə torpaq, əmək, kapital və sahibkarlıq daxildir.

## Bolluq ölkəsi olan Amerikada, həqiqətən, qıtlıq varmı?

Qıtlıq hər kəs üçün mövcuddur. Varlıdan kasıba qədər hamı bu halla üzləşir. Amma Amerikadakı qıtlıq Somalidəki qıtlıqdan fərqli görünür, bu, dəqiqdir. Burada çeşidli yeməklər və təmiz su var, lakin Somalidə hər ikisi çatışmır. Qıtlıq təkcə məhdud resursların deyil, həm də qeyri-məhdud istəklərin doğurduğu haldır və bu amil Amerikanı Somalidən fərqləndirir.

---

- Torpaq bütün təbii sərvətləri özündə cəmləşdirir, o, sadəcə, təsadüfi mülkiyyət deyil. Buraya ağaclar, mineral yataqlar, okeandakı balıqlar, yeraltı sular və köhnə düzənliklər daxildir. Torpaqlar bərpa olunan və bərpa olunmayan təbii ehtiyatlara bölünə bilər. Şam ağacları və toyuqlar kimi bərpa olunan mənbələr asanlıqla doldurulur. Neft və Atlantik treska balığı kimi bərpa olunmayan mənbələri doldurmaq çətindir. Torpağa görə ödəniş icarə adlanır.
- Əmək dedikdə müəyyən bacarıq və qabiliyyətlərə malik insanlar nəzərdə tutulur. Əmək bacarıqsız, ixtisaslı və peşəkar hissələrə bölünür. Bacarıqsız əmək qüvvəsi dedikdə hamburger hazırlamaq və ya konveyerdə işləmək kimi təkrarlanan işləri yerinə yetirmək üçün maaş alan, heç bir rəsmi təhsili olmayan şəxslər nəzərdə tutulur. Bacarıqlı əmək dedikdə gördükləri iş üçün əməkhaqqı alan şəxslər nəzərdə tutulur. Onlar nə edə biləcəklərini yaxşı bilirlər. Qaynaqçılar, elektriklər, santexniklər, mexaniklər və dülgərlər bacarıqlı işçilərə nümunədirlər.
- İqtisadiyyatda kapital pula deyil, istehsal prosesində istifadə olunan bütün alətlərə, fabriklərə və avadanlıqlara aiddir. Kapital investisiyanın məhsuludur. Stop! Bu, çaşqınlıq yaratmırmı?

İndiyə qədər siz, yəqin ki, xoşbəxt bir həyat sürərək düşünmüsünüz ki, kapital puldur və birjada apardığınız iş investisiyadır. Çox heyif. Kapital digər materialların istehsalı üçün istifadə olunan fiziki materialdır, investisiya isə həmin materialı almaq üçün xərclənən puldur. Kapital yaratmaq üçün sizin ilkin kapitalınız olmalıdır. Kapital həmişə borc pulla alındığı üçün ondan faiz tutulur.

## İzah

**Bölüşdürmə**

İqtisadçılar düzgün resursların lazımi insanlara çatdırılmasını bölüşdürmə kimi təsvir edirlər. Marjinal mənfəət marjinal xərcə bərabər olduqda bölüşdürmə səmərəliliyi baş verir. Bu şərt yerinə yetirildikdə ən böyük fayda cəmiyyətə çatır.

# KOMPROMİS VƏ İMKAN DƏYƏRİ

Bizim irəli sürdüyümüz fərziyyə

İstehsal faktorundan istifadə etdiyiniz vaxt müəyyən bir xərc çəkirsiniz. Niyə? İstehsal amilləri sərhədsiz deyil, məhduddur.

Nəticə etibarilə siz nə vaxt torpaqdan, əməkdən, kapitaldan və ya müəssisədən bir məqsəd üçün istifadə etmək qərarına gəlsəniz, o zaman başqa məqsəd üçün istifadə etmək imkanını itirirsiniz.

Gəlin ilkin mənbəni götürək: sizin əməyinizi. Tutaq ki, bir saat kitab yazmağa, sinif öyrətməyə və ya qamak toxumağa vaxt sərf edə bilərsiniz. Qarşılaşdığınız seçim kompromis adlanır. Misal üçün, siz qamak toxumağı seçmisiniz. Həmin vaxt nə dərs deyə, nə də kitab yaza bilərsiniz. Əgər kitab yazmaq növbəti ən yaxşı alternativinizdirsə, o zaman iqtisadçılar deyərlər ki, bir saatlıq qamak toxumağın fürsət dəyəri kitab yazmağa sərf edə biləcəyiniz saata bərabərdir. Fürsət dəyəri resursun növbəti ən yaxşı alternativ istifadəsidir.

## Gizli və açıq xərclər

Fürsət dəyəri bəzən gizli xərc kimi də adlandırılır. İstənilən istehsal fəaliyyəti üçün hesablanması asan olan əmək, xammal və qaimə məsrəfləri kimi açıq məsrəflər və təxmin edilməsi daha çətin olan gizli məsrəflər mövcuddur.

# FÜRSƏTİN QİYMƏTİNİ NƏZƏRƏ ALARAQ

Məsələn, deyək ki, gözəl bir cümə səhəridir və siz özünüz üçün düşünürsünüz: "Mən lazım olduğu kimi işə gedə bilərdim, evdə qa-